# ZƏFƏR PARADI – Qələbəmizin təntənəsi

***Ötən il dekabrın 10-da paytaxtımızda Azərbaycanın Vətən müharibəsindəki möhtəşəm qələbəsi şərəfinə keçirilən Zəfər paradı təcavüzkar Ermənistanın 30 il ərzində işğal altında saxladığı əzəli-əbədi torpaqlarımızın azad olunmasını, ordumuzun güc-qüdrətini, döyüş ruhunu, xalqımızın torpaq-yurd sevgisini, haqq-ədalət uğrunda mübarizə əzmini, yumruq kimi bir olmağını ifadə edən təntənənin nümayişi idi. Bu parad, eyni zamanda, Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını, əbədiliyini bütün dünyaya göstərdi.***

Azərbaycanın üç min əsgər və zabiti ilə yanaşı, doğma Türkiyənin qoşun birləşmələri nümayəndələrinin də bu paradda iştirakı ilə həm də işğalçıya və havadarlarına “Azərbaycan tək deyil. Qardaş ölkəyə hər zaman siyasi və mənəvi dəstək göstəriləcək, daim yanında olacağıq”, – mesajı çatdırıldı.

Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə 2018-ci ildə keçirilən hərbi paradda dövlətimizin başçısının söylədiyi: “Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”, – fikirləri isə Silahlı Qüvvələrimizin Ali Baş Komandanının uzaqgörənliyinin bir daha təsdiqlənməsi idi.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Rusiyanın nüfuzlu “Nasionalnaya oborona” jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenkoya müsahibəsində Bakıda Zəfər paradının keçirilməsi barədə deyib: “Ermənistan kapitulyasiya aktı imzalayandan dərhal sonra müdafiə nazirinə sərəncam verdim ki, parada hazırlaşsın, hazırlıq təqribən bir ay çəkdi. Ona görə ki, necə deyərlər, hələ hamının başı döyüş əməliyyatlarına qarışmışdı, biz buna yaxşı hazırlaşmalı idik, başa düşürdük ki, bu, qeyri-adi paraddır”.

Dövlətimizin başçısı daha sonra bildirib ki, biz əvvəllər də hərbi paradlar keçirmişdik, lakin sizin düzgün olaraq dediyiniz kimi bu, Zəfər paradı idi: “Buna görə o, Azərbaycan vətəndaşlarının bütün gələcək nəsilləri üçün rəmzi məna və tarixi əhəmiyyətə malik idi. Yadımdadır, 2018-ci ildə biz Azərbaycan Ordusunun yaradılmasının 100 illiyini qeyd edərkən mən paradda çıxış edərək demişdim ki, indi parada 2016-cı il döyüşləri zamanı işğaldan azad edilmiş Lələtəpə ərazisində ucaldılmış bayrağı gətirəcəklər. O vaxt demişdim ki, gün gələcək, biz azad edilmiş ərazilərdə ucaldılmış bayrağı Zəfər paradına gətirəcəyik. Həmin gün gəldi. Təbii ki, orada hərbi texnikanı nümayiş etdirdik, müharibə iştirakçıları paraddan keçdilər”.

***(ardı 5-ci səhifədə)***

# ZƏFƏR PARADI – Qələbəmizin təntənəsi




*(əvvəli 1-ci səhifədə)*

Prezident həmin müsahibədə Ermənistan ordusundan qənimət götürülmüş hərbi yük maşınlarının və hərbi maşınların nömrələrindən ibarət divarın nümayiş etdirilməsinə də toxunub: "Biz bunu nə üçün etdik? Ona görə ki, Birinci Qarabağ müharibəsində insanlar öz əmlakını, o cümlədən şəxsi avtomobillərini atıb qaçanda ermənilər bizə bizim onların getməsinə verdiyimiz vaxtı vermədilər, onlar Azərbaycan xalqını alçaltmaq üçün həmin şəxsi avtomobillərin nömrələrindən bir divar düzəltmişdilər, hərçənd, əslində, bu divar onların hərbi cinayətlərinə dəlalət edirdi. Ona görə ki, dinc əhaliyə qarşı vuruşmaq, xüsusən qarət edilənləri belə nümayişkaranə şəkildə göstərmək, hərbi cinayətdir. Lakin onlar bunu etdilər və bunu turistlərə, işğal dövründə qanunsuz olaraq bu regiona gələn müxtəlif siyasətçilərə nümayiş etdirirdilər. Buna görə biz onlara cavab verməli idik, lakin bizim cavabımız da layiqli oldu. Biz bu pannonu düzəltdik, hazırda o, Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o, bütünlüklə atılmış və qənimət götürülmüş yük maşınlarının nömrələrindən ibarətdir. Onların üzərində "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri yazılıb. Mənim fikrimcə, bu, həmin paradın kulminasiyası idi".

Zəfər bayramında meydanda qürurla addımlayan əsgər və zabitlərimiz, nümayiş etdirilən texnika Azərbaycan Ordusunun döyüş ruhundan, qələbə sevincindən, Silahlı Qüvvələrimizin hansı imkanlara malik olmasından xəbər verirdi.

Paradda diqqətçəkən bir məqam da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu bayrama qatılması idi. Bu, qardaş ölkənin Azərbaycana sevgisinin parlaq təzahürü kimi diqqət çəkdi. Müharibə günlərində ordumuzun zəfər yürüşündən fərəh hissi keçirərək, "Azərbaycandan xoş xəbərlər aldıqca çox qürurlanırıq, sevinirik" – deyən qardaş ölkə rəhbəri bu səfəri ilə istər ağır, istərsə də xoş günlərimizdə Azərbaycanın yanında olduğunu, sevincimizi bölüşdüyünü bütün dünyaya nümayiş etdirdi.

Ümumiyyətlə, Vətən müharibəsi günlərində Türkiyə və Azərbaycanın möhkəm, sarsılmaz birliyi bir daha özünü qabarıq büruzə verdi, Türkiyə hər zaman olduğu kimi, yenə də Azərbaycanın yanında oldu, qeyd edildiyi kimi, tarixi zəfər sevincini bizimlə birgə yaşadı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Qarabağda qazanılan zəfər həm beynəlxalq hüquq, həm diplomatik, həm də hərbi baxımdan Azərbaycana ana südü kimi halaldır", –bildirdi. Daha sonra "Azərbaycan kimsənin torpağına əl uzatmadı, göz dikmədi, kimsəyə hücum etmədi. BMT və ATƏT qərarlarına rəğmən 30 il işğal altında saxlanan torpaqlarını azad etdi. Bunu da ermənilər kimi dinc insanların yaşadığı yeri hədəf almaqla deyil, qanun çərçivəsində gerçəkləşdirdi",-deyə vurğuladı.

Bu məqamda onu da xatırlatmaq yerinə düşər ki, Ali Baş Komandan İlham Əliyev prezidentlik fəaliyyəti dövründə ordumuzun güclənməsinə daim önəm verdi, ən müasir döyüş texnikasının alınmasını gerçəkləşdirdi. Əsgər və zabitlərimizin sosial şəraitinin yaxşılaşdırılması hər zaman diqqət mərkəzində saxladı. Məhz bütün bunların nəticəsi idi ki, 44 günlük döyüşdə Silahlı Qüvvələrimiz möhtəşəm uğurlara imza atdı, döyüş meydanında öz üstünlüyünü dəfələrlə sübut etdi.

Vətən müharibəsində ordumuz erməni tərəfinin, təqribən 30 il ərzində işğal olunan torpaqlarda yaratdığı müdafiə xətlərini, mühəndis qurğularını şücaətlə dağıtdı, komanda məntəqələrini, çox sayda hərbi texnikasını, canlı qüvvəsini məhv etdi. Bu, Silahlı Qüvvələrimizin dünyada ən yaxşı döyüş qabiliyyətinə malik ordulardan biri hesab edilməsinin əbəs deyilmədiyini təsdiqlədi.

Azərbaycan Ordusu Vətən müharibəsində dünyanın ən güclü orduları sırasında olduğunu təsdiqlədi. Ordu bölmələrimiz harada olur-olsun, döyüşləri planlı şəkildə apardı, xaotikliyə yol vermədi. Döyüş əməliyyatları haqqında Ali Baş Komandan müntəzəm məlumatlandırıldı. Əməliyyatların icrası, yaşayış məntəqələrinin azad olunması planlı şəkildə açıqlandı.

Şübhəsiz ki, Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti və əzmi, möhkəm maddi-texniki bazası, ordu-xalq-Prezident birliyi qısa müddətdə dövlətimizin ərazi bütövlüyünün təmin olunması istiqamətində möhtəşəm uğurları şərtləndirdi.

Hərbi ekspertlərin vurğuladıqları kimi, Azərbaycan döyüş əməliyyatları zamanı da haqqa, ədalətə söykəndi, beynəlxalq konvensiyalara əsaslandı. Belə ki, Ermənistan tərəfinin uğursuzluqdan isterikaya düşərək Azərbaycanın döyüş bölgəsində yerləşməyən rayon və şəhərlərində dinc əhalini, qadınları və uşaqları raket və artilleriya zərbələri ilə atəşə tutmasına baxmayaraq, hərbçilərimiz düşmənin yalnız hərbi obyektlərini hədəfə aldı, hətta mülki əhalinin ziyan görməməsi üçün onları bu cür obyektlərdən uzaq durmağa çağırdı.

Şəhər və kəndlərimiz işğalçıdan təmizləndikcə, qəsbkarın 30 il ərzində tapdaq altında saxladığı ərazilərdə daşı daş üstdə qoymadığının şahidi olduq. Erməni faşistlərinin azərbaycanlıların evlərini dağıdaraq, xaraba qoyduqlarını, yaşayış məntəqələrində istehkamlar qurduqlarını, beton laylarla örtülmüş səngərlər hazırladıqlarını gördük. Bütün bu sədlər ordumuzun güc-qüdrəti ilə yararaq, düşmənin məhvini şərtləndirdi.

Beləliklə, dövlətimizin başçısının qətiyyətli siyasəti Ermənistan və onun havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Azərbaycan Prezidenti müdrik siyasəti, qətiyyəti ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Azərbaycan Ordusuna inamı bu tarixi qələbəni reallaşdırdı. Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiqlədi.

Zəfər paradı ilə Azərbaycan yeni inkişaf, tərəqqi mərhələsinə daxil oldu. Dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, döyüş meydanında, siyasi müstəvidə qazanılan bu qələbə ilə ölkəmiz üçün yeni bir dövr açıldı .

Vətən müharibəsindəki möhtəşəm qələbə ilə Azərbaycan bütün dünyaya özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarında olduğunu göstərdi. Eyni zamanda, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşduğunu sübuta yetirdi. Döyüş meydanında işğalçıya layiq olduğu yerini göstərməklə bərabər, bizi öz haqq işimizdən heç bir qüvvənin çəkindirə bilməyəcəyini də nümayiş etdirdi.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 9 dekabr.- S.1;5.